# Rayon icra hakimiyyəti başçısının səyyar görüş-qəbulları keçirilib

## Vəndam qəsəbəsində

***Qəbələdə əhalinin problemlərinin həllinə diqqətlə yanaşılır. Rayon rəhbərliyi tərəfindən qəsəbə və kəndlərdə mütəmadi olaraq görüşlər keçirilir, əhalinin həyat şəraitinin yaxşılaşdırılması, sosial problemlərin həlli məqsədilə ardıcıl tədbirlər görülür.***

***Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin ənənəvi hal alan səyyar görüş-qəbulları sakinlərin qaldırdıqları problemlərin həllini tezləşdirməklə əhali tərəfindən də razılıqla qarşılanır.***



Növbəti səyyar qəbul iyulun 31-də Vəndam qəsəbəsində kecirilib.

Qəsəbədəki 1 nömrəli tam orta məktəbin akt zalında təşkil olunan görüşdə RİH başçısı ilə birlikdə hüquq mühafizə orqanlarının, aidiyyəti idarə, müəssisə və təşkilatların, xidmət sahələrinin rəhbərləri və qəsəbə sakinləri iştirak ediblər.



Görüşü giriş sözü ilə açan rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev qəsəbə sakinləri ilə keçirilən hər bir görüşdən sonra sakinlərin təklifləri nəzərə alınmaqla ərazidə abadlıq işlərinin daha geniş vüsət aldığını diqqətə çatdırıb. RİH başçısı həmçinin qeyd edib ki, son illər ərzində qəsəbədə həyata keçirilən quruculuq işləri vəndamlılara dövlət tərəfindən göstərilən daimi diqqət və qayğının təzahürüdür. Giriş nitqində yaşayış məntəqəsində görülən işlərin qəsəbə sakinlərinin rifahının yaxşılaşdırılmasına stimul verdiyi diqqətə çatdırılıb.

Daha sonra qəsəbə sakinləri dinlənilib. Qəbula gələn vətəndaşlar keçən görüşdə qaldırılan problemlərin həll olunduğunu vurğulayaraq bütün bunlara görə Səbuhi Abdullayevə öz dərin təşəkkürlərini bildiriblər. Bununla yanaşı sakinlər qəsəbədə yeni artezian quyusunun qazılmasına, "Girvə" yaşayış massivinə qaz xəttinin çəkilməsinə, yeni uşaq bağçasının tikilməsinə və digər məsələlərə köməklik göstərilməsini xahiş ediblər.

Görüş-qəbulda sakinləri narahat edən məsələlərin bir qismi yerindəcə həll olunub. Müəyyən vaxt tələb edən digər məsələlərin həlli istiqamətində isə RİH başçısı tərəfindən müvafiq tapşırıqlar verilib.

---

## Mirzəbəyli kəndində

Avqustun 3-də Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayevin Mirzəbəyli kənd sakinləri ilə görüş-qəbulu keçirilib. Görüşdə Prezident Administrasiyasının məsul işçisi Rüfət Əliyev, rayonun hüquq-mühafizə orqanlarının, əlaqədar xidmət təşkilatlarının rəhbərləri və kənd sakinləri iştirak ediblər.

Görüşü rayon icra hakimiyyətinin başçısı Səbuhi Abdullayev açaraq son illərdə Prezident cənab İlham Əliyevin rəhbərliyi altında respublikamızda dövlət səviyyəsində həyata keçirilən sosial-iqtisadi tədbirlərin icmalını verib. RİH başçısı qeyd edib ki, ölkədə həyata keçirilən uğurlu siyasətin nəticəsidir ki, bu gün Azərbaycanın hər bir bölgəsində, o cümlədən rayonumuzda geniş tikinti-abadlıq işləri aparılır, yeni yollar çəkilir, təhsil, səhiyyə müəssisələri inşa olunur, uşaq bağçaları tikilir, sosial layihələr həyata keçirilir. Ölkə başçısı tərəfindən özəl sahəyə xüsusi diqqət yetirilir, yeni-yeni istehsal və emal müəssisələri yaradılır. Görülən bütün bu işlər, həyata keçirilən tədbirlər sonda yalnız bir amala xidmət



edir ki, bu da əhalimizin yaxşı yaşaması, insanlarımızın fəaliyyəti üçün iş yerlərinin yaradılması, onların sosial rifahının və həyat səviyyəsinin daha da yüksəldilməsidir.

Səbuhi Abdullayev son illər Mirzəbəyli kəndində də xeyli quruculuq işlərinin aparıldığını qeyd edərək bildirib ki, digər kəndlərimiz kimi Mirzəbəyliyə də qaz xətti, asfalt yol çəkilib, elektrik və su təsərrüfatında yenidənqurma işləri aparılıb. Yaşayış məntəqəsinin daxili yollarının hamarlanması, kəndin mərkəzindən keçən çayın yatağının qum-çınqıldan təmizlənərək qaydaya salınması və sahilbərkitmə işləri ilə bağlı tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

RİH başçısı qeyd edib ki, ölkəmizin elə bir bölgəsi yoxdur ki, orada əhalinin güzəranının yaxşılaşmasına xidmət edən mühüm layihələr həyata keçirilməsin. Bunun nəticəsidir ki, bizim şəhərimizdə, qəsəbə və kəndlərimizdə də əhalinin həyat səviyyəsi gündən-günə yüksəlir.

Sonra rayonun xidmət təşkilatları rəhbərlərinin ərazidə gördükləri işlərə dair hesabatları dinlənilib.

Səyyar qəbulda iştirak



edən kənd sakinləri onlara göstərilən qayğıya görə Prezidenti cənab İlham Əliyevə minnətdarlıqlarını bildiriblər. Onlar son illər rayonumuzda geniş vüsət alan abadlıq-quruculuq işlərindən Mirzəbəyli kəndinin də qıraqda qalmadığını diqqətə çatdırıblar.

Çıxış edən kənd sakinləri məktəb binasının əsaslı təmir olunmasına, içməli və suvarma suyunun təminatının daha da yaxşılaşdırılmasına, köhnəlmiş elektrik dirəklərinin, naqillərin dəyişdirilməsinə və digər problemlərin həllinə köməklik göstərilməsini xahiş ediblər.

Görüşdə sakinlər tərəfindən verilən təkliflərin və qaldırılan məsələlərin həlli istiqamətində aidiyyəti qurumların rəhbərlərinə tapşırıqlar verilib.

Tədbirdə iştirak edən Prezident Administrasiyasının məsul işçisi Rüfət Əliyev də sakinlər tərəfindən qaldırılan məsələləri diqqətlə dinləmiş, onların həlli istiqamətində təkliflər hazırlanaraq aidiyyəti qurumların qarşısında məsələ qaldırılacağını və lazımı köməklik göstəriləcəyini bildirmişdir.

**Varis YAQUBOV,**
**İlkin Vəlizadə (foto),**
*"Qəbələ"*

# X Qəbələ Beynəlxalq Musiqi Festivalı möhtəşəmliyi ilə yaddaşlarda qalacaq

## Avropa bəstəkarlarının əsərləri səsləndirilib

İyulun 31-də X Qəbələ Beynəlxalq Musiqi Festivalında Rusiyadan gəlmiş gənc musiqiçilərin iştirakı ilə növbəti kamera konserti olub.

Heydər Əliyev Konqres Mərkəzində keçirilən konsert rusiyalı gənc qoboy ifaçısı Andrey Varlamovun Fransis Pulenkin qoboy üçün sonatadan "Elegiya" və "Skertso" hissələrinin səsləndirilməsi ilə başlayıb. İfaçını pianoda beynəlxalq müsabiqələr laureatı Oleq Xudyakov müşayiət edib.

Kamera musiqisi həvəskarlarına, həmçinin Jorj Bize-Frans Vaksmanın "Karmen-Fantaziya", Vittorio Montinin "Çardaş", Kristov Villibaid Qlükin "Orfey və Evridika" operasından Evridikanın ariyası, Nikolay Rimski-Korsakovun "Plenivşis rozoy solovey", Friderik Şopenin "Polonez", Ferents Listin "Mefisto-vals" əsərləri də təqdim olunub.



Kamera musiqisi həvəskarlarına həmçinin Jorj Bize-Frans Vaksmanın "Karmen-Fantaziya", Vittorio Montinin "Çardaş", Kristov Villibaid Qlükin "Orfey və Evridika" operasından Evridikanın ariyası, Nikolay Rimski-Korsakovun "Plenivşis rozoy solovey", Friderik Şopenin "Polonez", Ferents Listin "Mefisto-vals" əsərləri təqdim olunub.

Konsertdə rusiyalı ifaçılarla yanaşı, azərbaycanlı solist Çinarə Əzimova (soprano) və pianoçu Rəfiqə Quluzadə çıxış ediblər.

**"Qəbələ"**